Tarix və onun problemləri, № 1 2012

**GÜLARA ƏLVAN QIZI ƏLIYEVA**
Gəncə Dövlət Universitetinin baş müəllimi
Heydər Əliyev prospekti, 187
Gəncə ş., Azərbaycan Respublikası
gularaalvan@gmail.com

# XIX ƏSRIN II YARISINDA ÜMUMTƏHSIL MƏKTƏBLƏRI NƏZDINDƏ KƏND TƏSƏRRÜFATI VƏ SƏNƏT ŞÖBƏLƏRININ AÇILMASI

***Açar sözlər:*** *sənət, peşə, ipəkçilik, təhsil, sənaye, şöbə, xalq məktəbləri.*
***Ключевые слова:*** *ремесло, профессия, шелководство, образование, промышленность, отдел, народные школы.*
***Key words:*** *handicraft, profession, sericulture, education, industry, department, public schools.*

XIX əsrin son rübündə inkişaf etməkdə olan kapitalist iqtisadiyyatının ixtisaslı fəhlələrə,sənayenin ayrı-ayrı sahələrində texnikaya xidmət göstərməyi kənd təsərrüfatını səmərəli surətdə qurmağı və yeni nəqliyyat vasitələrini idarə etməyi bacaran təhsil görmüş, savadlı mütəxəsislərə tələbatın olması və bu tələbin durmadan artması höküməti Şimali Azərbaycanda da ümumtəhsil və peşə məktəblərinin sayının müəyyən qədər artmasına, onların təhsil səviyyəsinin yüksəldilməsinə məcbur edirdi.

Şimali Azərbaycanda ümumtəhsil məktəbləri nəzdində kənd təsərrüfatı şöbələrinin yaradılması və fəaliyyətə başlaması XIX əsrin 80-ci illərinə təsadüf edir.Tiflis-Bakı dəmir yolunun çəkilməsi və Xəzər gəmiçiliyinin fəaliyyətinin genişlənməsi Şimali Azərbaycanda iqtisadiyyatın yüksəlməsinə güclü təkan vermiş oldu.Kənd yerlərində aqrosənaye sahələrinin inkişafı, texniki bitkilərə olan ehtiyacın artması çarizmi ipəkçilik, üzümçülük, bambıqçılıq, tütünçülük, biyan kökü istehsalı ilə məşğul olan kəndlilərə xüsusi kurslar keçilməsi yolu ilə kənd təsərrüfatında müəyyən nailiyyətlər əldə etmək düşündürürdü.Kənd təsərrüfatı və ölkə sənayesi iqtisadiyyatın yüksək və keyfiyyətli inkişafını təmin edə biləcək gənc bilikli kadrlar tələb edirdi.Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin açılması kəndlərdə xalq məktəblərinin təşkilində və inkişafında xeyli müəyyən yaratdı.

Şəhər və kənd məktəblərinin fəaliyyəti haqqındakı nizamnamələrdə maliyə vəsaitindən və tələbatdan asılı olaraq şagirdlərə həm də müəyyən peşə öyrədilməsi bəndinin salınması həmin məktəblərdə kənd təsərrüfatı bilikləri və sənət öyrədilməsinə rəvac verirdi.Bu, hökümətin kənd təsərrüfatı biliklərinin ilk olaraq qəza və kənd ibtidai məktəblərində əlavə fənn kimi şagirdlərə öyrədilməsi tədbiri idi.Artıq XIX əsrin 80-ci illərindən başlayaraq, şəhər və kənd məktəbləri nəzdində kənd təsərrüfatı və sənət şöbələrinin təşkil edilməsinə başlanılmışdı.

XIX əsrin 80-ci illərində ipəkçilikdəki durğunluğun aradan qaldırılması üçün hökümətin gördüyü bəzi tədbirlər – 1886-cı ildə Qafqaz Kənd Təsərrüfatı Cəmiyyətinin nümayəndəsi Q.A.Mirimanovun Göyçaya nümunəvi ipək qurdu çıxarmaq işi ilə məşğul olmağa göndərilməsi və onun tərəfindən ipəkçiliklə məşğul olan ailələrə ədəbiyyat paylanması **[1, s.282]** və s. heç bir nəticə əməli vermədi.

Buna baxmayaraq, 1887-ci ildə Qafqaz ipəkçilik stansiyası açılandan sonra qəzalarda xüsusi kursların təşkil edilməsinə başlanılmışdı **[2, s.133-140]**.Həm də Qafqaz ipəkçilik stansiyasının nümayəndələri müxtəlif vaxtlarda bir sıra qəzalarda oluk və ipəkçilik inkişafı ilə maraqlanırdılar.1888-ci ildə Göyçay qəzasının 14 ipəkçilik kəndində və Kürdəmirdə olmuş, Qafqaz ipəkçilik stansiyasının təlimatçısı – ipəkşünası V.İ.Jemuydzinoviç **[3, s.3]** bu qəzalardakı məktəblərdə ipəkçilik şöbələrinin açılmasını istəmişdi.Stansiyanın 1889-cu ildə təşkil edilmiş Lənkəran,Vartaşen, Nuxa və Ağdaş **[4, s.175-176]** az sonra açılmış Qax, Bərgüşad, Hadrut **[5, s.247]** şöbələri kümdarlar arasında qurdu bəsləmə qaydalarını geniş surətdə yayırdı.Stansiyanın yaxından köməyi nəticəsində Nuxa, Ağdam, Göyçay, Kürdəmir, Naxçıvan və digər yerlərdə təşkil edilmiş xüsusi ipəkçilik məktəblərində və ya başqa məktəblərdə ipəkqurdu bəsləmə üsulları şagirdlərə öyrədilirdi **[6, s.100-102]**.Bu, həmin dövr üçün əlamətdar hadisə idi.Məktəblərin şöbələri əldə etdikləri nailiyyətlərinə görə tezliklə şöhrət tapmışdı.

Stansiyanın təlimatçısı N.D.Kələşov məktəblərdə 1888 və 1890-cı illərdə ipəkçilik üzrə kurslar keçəndən sonra, 1891-ci ildə Göyçay məktəbi yanında ipəkqurdu çıxarmanı təşkil etmişdi **[2, s.133-140]**.1890-cı ildə Qafqaz ipəkçilik stansiyasının müdiri N.N.Şavrov və həmin stansiyanın işçisi N.M.Zamsa Kürdəmir və Yelizavetpolda olmuş, məktəb və kəndli kümxanalarına baxış keçirmiş və öz məsləhətlərini vermişdi **[7, s.21]**.

Kənd təsərrüfatı məşğələlərini aparan müəllimlər adətən yay tətili zamanı Yelizavetpol məktəbi və Qafqaz ipəkçilik stansiyasında xüsusi kurs keçir, öz bilik və bacarıqlarını təkmilləşdirirdilər.Kənd təsərrüfatı üzrə məşğələlər dərsdənkənar aparılır və bu məşğələlər ilin fəslindən və işin xüsusiyyətindən asılı olaraq gündə iki, bəzən də üç saat davam edirdi.Şimali Azərbaycanda ipəkçiliyin inkişafına nəzarət etmək məqsədilə Qafqaz ipəkçilik stansiyasının 1889-cu ildə Nuxa və Şuşa şəhərlərində yaradılmış filialları yerli məktəblərin ipəkçilik şöbələrində məşğələlər aparan müəllimlər üçün öz təlimatçılarını ezam edir və göstərişlərini verirdi.Onlar 191 ipəkçilik sahələrində ipəkçilik işinin düzgün aparılması ilə maraqlanmış və qurd bəsləmək üçün səmərəli olan qəfəsləri və müxtəlif qurdbəsləmə üsullarını nümayiş etdirmişdilər **[8, s.86]**.Bunlar da təbii ki, şagirdlərin bilik səviyyəsinin yüksəlməsinə öz təsirini göstərirdi.Nuxa və Şuşa şəhər məktəbləri nəzdindəki ipəkçilik şöbələri də öz müvəffəqiyyətləri ilə fərqlənirdi.Belə məktəblərin fəaliyyətinə bir az geniş diqqət yetirək.

Tarixən Qafqaz ipəkçiliyin mərkəzi hesab olunan Nuxada hələ 1829-cu ildə (Xanabad) ipəksarıma manufakturası açılmışdı.Əhali ipəksarıma ənənələrini yaşatmaqla yanaşı, yenilikləri tezliklə öyrənirdi.Bu da təbii ki, çoxəsirlik yerli ipəkçilik ənənələrinin mövcudluğunun bilavasitə nəticəsi idi.Çar məmurlarından biri yazırdı: "Yerli əhali yaxşı əyirməni qısa müddət ərzində öyrənir.Avropada isə yaxşı əyirici yetişdirmək üçün illərlə vaxt lazım gəlir" **[9, s.26]**.1854-cü ildə Xanabad manufakturasında ilk dəfə dəzgahların bir hissəsini hərəkətə gətirən buxar maşını tətbiq olundu.Bütün bunlar ipəkçilik sənayesini inkişaf etdirmək sahəsində yeni, daha yüksək ixtisaslı kadrlar hazırlığı tələb edirdi.Bu tələb nəticəsində hələ 1843-cü ildə Nuxada "təcrübə ipəkçilik məktəbi" adlanan bir məktəb açılmışdı.İyirmi ildən artıq fəaliyyət göstərmiş bu məktəbə 236 şagird qəbul olunmuş, bunlardan 117-si məktəbi müvəffəqiyyətlə bitirmişdi."Məktəb təkcə Şimali Azərbaycanda deyil, bütün Cənubi Qafqazda ipəkçiliyin inkişafı üçün mühüm əhəmiyyətə malik idi" **[9, s.26]**.

Məlumdur ki, artıq 1877-ci ildə Nuxa qəza məktəbi üç sinifli şəhər məktəbinə çevrilmişdi.On ildən sonra Nuxa şəhər məktəbi nəzdində kənd təsərrüfatı və sənət şöbələri təşkil edilmişdi.Məktəb təlim müvəffəqiyyətləri ilə yanaşı kənd təsərrüfatı peşələrinə hazırlanması sahəsində də xeyli iş görmüşdür.Məktəbin nəzdində açılmış ipəkçilik şöbəsi daha məşhur idi **[9, s. 26]**.

XIX əsrin 80-ci illərin sonlarına aid olunan məlumata görə Nuxa qəzasının Baş Göynük, Koxmux, Padar, Xaçmaz, Qutqaşen, Vəndam və Vartaşen kənd məktəblərində ipəkçiliklə məşğul olurdular **[10, s.229]**.

Baş Göynük kənd məktəbində müəllim və şagirdlərin böyük zəhməti hesabına dörd ildən sonra barama yetişdirilmişdi.Bu Avropa təcrübəsindən daha keyfiyyətli alınmışdı **[10, s.229]**.Göynük kənd məktəbində ipəkçilik dərsləri müəllim Məlikov tərəfindən tədris olunurdu **[10, s.286]**.Koxmux kənd məktəbində Tiflisdən gətirilmiş barama saxlanırdı.Koxmuxlular ipək istehsalında təcrübəli hesab olunurdular.Padar kənd məktəbində Qafqaz ipəkçilik stansiyasının müdiri Şavrovun özü tərəfindən göndərilən ipək qurdu saxlanırdı.Xaçmaz kənd məktəbində isə yerli barama yetişdirilirdi.

Qutqaşen məktəbi təlim-tərbiyə işlərinin təşkilindəki nailiyyətlərinə görə Qafqazda kifayət qədər məşhur idi.Qutqaşen məktəbi elmi biliklərlə yanaşı şagirdlərə kənd təsərrüfatına, xüsusilə ipəkçiliyə və bostançılığa aid nəzəri və təcrübi biliklər verirdi.1882-ci ilin sentyabrın 13-də birsinifli məktəb proqramı ilə öz fəaliyyətinə başlamış Qutqaşen məktəbinin nailiyyətləri onun müəllimi olmuş Rəşid bəy Əfəndiyevin adı ilə sıx bağlıdır.Məktəbin inkişfında və nüfuzunun artmasında onun xidmətləri böyük olmuşdur.Dövrün tanınmış ziyalılarından olan R.Əfəndiyev bu məktəbdə səkkizillik müəllimlik fəaliyyəti dövründə həm də şagirdlərə ipəkçiliyə və bostançılığa aid nəzəri və təcrübi biliklərini əsirgəməmişdir **[11, s.298]**.Məktəbin 1884-cu ildə altı otaqlı binası istifadəyə verilmişdi.1889-cu ilin məlumatına görə bu məktəbdə yetişdirilən ipək qurdlarının sayı xeyli artırılmışdı **[10, s.229]**.

1889-cu ilin iyunun 1-də Qutqaşenə gələn Qafqazın baş mülki rəisi knyaz Dondukov-Korsakov

tərəfindən ərizələri tərcümə etmək üçün dəvət olunmuş R.Əfəndiyev şagirdləri ilə birlikdə məktəbin ipəkçiliyindən, barama və bostanından əldə olunmuş məhsul nümunələrini ona təqdim etmişdi.Məktəbin ipəkçilik və bostançılıq məşğələləri haqqında hərtərəfli sorğudan sonra knyaz razılığını bildirmiş, müəllim və şagirdlərə bu faydalı işdə müvəffəqiyyət arzulamışdı **[11, s.299]**.Bu məktəbin fəaliyyəti nəticəsində bu və ətraf kəndlərdə savadlı adamların sayının artmasına xeyli təsir göstərmişdi.

Təhsilin rus və Azərbaycan dillərində aparıldığı Vəndam məktəbi yaradılarkən oraya cəmisi 21 şagird cəlb olunmuşdu.Rus, ərəb və fars dillərinin mükəmməl bilicisi Həsən Bağırov məktəbin müdiri təyin edilmişdi.Uşaqlarını böyük həvəslə məktəbə qoyan kənd sakinləri "məktəbin təkcə savad verməsindən narazı idilər.Onlar, həm də sənət şöbəsi açılmasını arzu edirlər.Kənd sakinləri istəyirlər ki, uşaqlar həm də hər hansı bir peşə öyrənsinlər."**[11, s.307]**. Kənd sakinlərinin istəklərini nəzərə alan, məktəbin tanınmasında böyük xidmətlər göstərmiş Həsən Bağırov şagirdlərə bu və ya digər zəruri peşələrin öyrədilməsinə səylə çalışırdı.Onun təşəbbüsü ilə məktəbdə ümumtəhsil fənlərindən başqa həm də bostançılıq, heyvandarlıq, xalçaçılıq və digər peşələr öyrədilirdi **[11, s.348]**.1883-cü ilin oktyabrın 30-da məktəbin təntənəli açılışında qonşu kəndlərdən gələnlər arasında Qutqaşen məktəbinin müdiri Rəşid bəy Əfəndiyev də var idi.Vəndam kənd məktəbi 1883-cü ildə Yelizavetpol quberniyasında açılmış 9 məktəbdən biri idi **[12, s.13]**.Bu məktəb də Nuxa qəzasının digər məktəbləri kimi ipəkçiliyin öyrənilməsi üzrə işlərini qurmuşdu.1889-cu ildə Vəndam kənd məktəbi bu sahədə fəaliyyətini daha da genişləndirmişdi **[10, s.230]**.Bu məktəbdə ipəkçilik dərslərini Ağababayev keçirdi.İpək qurdlarının bəslənməsi sinif şəraitində aparılırdı **[10, s.284]**.Bum kənd məktəbində isə ipəkçilik dərsləri Əbdürrəhman bəy tərəfindən keçilirdi **[10, s.283]**.

1882-ci ildən fəaliyyətinə başlamış Vartaşen kənd məktəbində ipəkçilik dərsləri Bejanov və Jeyranov tərəfindən tədris olunurdu.1889-cu ilin payızında Tiflis şəhərində keçirilən kənd təsərrüfatı və sənaye sərgisinin iştirakçısı olan Vartaşen kənd məktəbi II dərəcəli fəxri diplom və gümüş medalla təltif olunmuşdu **[10, s.277]**.

Cənubi Qafqazda ilk təsis edilən (1874-cü il) Şuşa şəhər məktəbi şagird çoxluğuna görə seçilirdi.Qafqaz Təhsil Dairəsi hamisinin 1875-ci il hesabatında 106 şagirdi olan Şuşa məktəbinin xüsusilə fərqləndiyini qeyd edərək göstərirdi ki,yerli əhali təkcə burada deyil, bütün imperiyada yeni olan bu məktəbə son dərəcə hüsn-rəğbətlə yanaşır **[13, s.29]**.Hökümət 1875-ci il mayın 6-da müflisləşmiş zadəganların və digər fəxri təbəqələrin təhsilinə qayğı göstərilməsi məqsədi ilə xüsusi qərar qəbul etmişdi.Qərara görə həmin təbəqələrin uşaqları dövlət hesabına pansionda yaşayır və təhsil alırdılar.1876-cı ildə Şuşa şəhər məktəbində təkcə bir sinifdə 70, 1877-ci ildə isə 160 nəfər şagird var idi.1876-cı ildə məktəbə qəbul olmaq istəyənlərin sayı 200 nəfərə çatmışdı.1878-ci ildə burada artıq 375 şagird təhsil alırdı.Bu qədər çox şagirdə malik olan şəhər məktəbi həmin dövrdə nəyinki Qafqazda, hətta Rusiyanın özündə belə yox idi **[14, s.176]**.1880-ci ildən başlayaraq Şuşa şəhər məktəbində şagirdlərə peşə öyrədilməsi sahəsində müəyyən işlər görülməsinə başlandı.Məktəbdə ipəkçilik şöbəsi yaradıldı.Uşaqlar bəslədikləri ipək qurdlarından sağlam toxum əldə edir, barama hazırlayırdılar **[15, s.19]**.

Məktəb Yelizavetpol quberniyasında 1883-cü ildə açılmış 9 məktəbdən biri idi.12 şagirdlə noyabrın 17-də fəaliyyətinə başlayan Qarğabazar kənd məktəbi kəndin varlı sakinlərindən biri olan Allahverdi Ağayevin 5 otaqdan ibarət xüsusi binasında yerləşmişdi **[12, s.13]**.Məktəbin ilk müəllimi A.O.Çernyayevski tərəfindən Şuşa şəhər məktəbi şagirdləri içərisindən seçilib 1879-cu ildə yenicə açılmış Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinə ilk qəbul olunmuş 13 şagirddən biri olan Əlişbəy Tahirov olmuşdur **[16, s.80]**.Əlişbəy Sadıqbəy oğlu Tahirov təkcə dərs deməklə kifayətlənməmiş, şagirdləri ictimai-faydalı və məhsuldar əməyə hazırlamağa ayrıca əhəmiyyət vermişdir.Məktəbin şagirdləri ipəkçiliklə də məşğul olurdular.Məktəb müdiri bu işə özü şəxsən rəhbərlik edirdi.1888-ci ildə məktəbdə ipək qurdunun yetişdirilməsində müvəffəqiyyət əldə olunmasına baxmayaraq **[10, s.289-290]** sonrakı ildə məktəb rəhbərliyinin böyük səyləri nəticəsində 38 pud barama yetişdirə bilmişdi **[12, s. 26]**.

Cəbrayıl kənd məktəbinin əsası 1876-cı ildə sentyabrın 1-də qoyulmuşdu.24 şagirdlə fəaliyyətə

başlamış Cəbrayıl kənd məktəbinin tədris binası darısqal olduğundan təhsil almaq istəyənlərin çoxunun məktəbə qəbulu qeyri-mümkün idi.Sonralar qəza məktəbinə çevrilməsi ilə əlaqədar olaraq, məktəb də genişləndirilib iki sinifli məktəb kimi fəaliyyətini davam etdirmişdi.Məktəb kirayə edilmiş üç otaqdan ibarət binada yerləşirdi.Məktəbin ətraf kəndlərdən gələn uşaqlar təhsil aldığına görə uşaqların qalması üçün pansionu var idi.1890-cı ildən bu məktəbdə ipəkçilik öyrədilməyə başlamışdı.İpəkçiliyin öyrədilməsi üçün lazım olan bütün vəsait müəllimlər tərəfindən alınmışdı **[11, s.310]**.Qəzada ipəkqurdunun düzgün bəslənməsində bu məktəbin və xüsusilə məktəbin ipəkçilik dərsinin müəllimi Fərəc bəy Sultanovun böyük xidmətləri olmuşdur **[10, s.95-110]**.

XIX əsrin 80-ci illərdə fəaliyyətə başlamış Ağcabədi ibtidai kənd məktəbi özünəməxsus fəaliyyəti ilə seçilirdi.Məktəbdə kənd təsərrüfatı dərslərinə xeyli yer ayrılmışdı.Burada uşaqlara böyük həvəslə ipəkçilik dərsi də tədris olunurdu.Bunun nəticəsidir ki, 1889-cu ilin payızında Tiflis şəhərində keçirilmiş kənd təsərrüfatı və sənaye sərgisində Ağcabədi ibtidai kənd məktəbi III dərəcəli diplom və bürünc medala layiq görülmüşdü **[10, s.277]**.

Ağdam, Ağdaş, Bərdə, Alpout, Hadrut, Ləmbəran, Tuğ kənd məktəblərində də ipəkçilik dərsi keçirilirdi **[10, s.278]**.1889-cu ilin məlumatına görə Ağdam məktəbində ipəkçilik dərsi B.D.İbrahimbəyov, Ağdaş məktəbində Əmircanov və Xocayev,Bərdə məktəbində Həsən bəy Bağırov, Hadrut məktəbində Davidbəyov və Nərimanbəyov tərəfindən tədris olunurdu **[10, s.278-288]**.

Dağkəsəmən kəndinin məktəbində də digər fənlərin tədrisi ilə yanaşı kənd təsərrüfatı biliklərinin verilməsi şagirdlərin kənd təsərrüfatının müxtəlif sahələrinə olan marağını artırırdı.Dağkəsəmən məktəbinin torpaq sahəsində şagirdlər tərəfindən əkilmiş meyvə və tut ağacları bağçılıq, bostançılıq və ipəkçilik məşğələlərinin daha səmərəli keçirilməsinə imkan verir **[17, s.120]**.İqtisadiyyatın bu mühüm sahəsinin ixtisaslı kadrlarla təchizi işinə böyük xeyir gətiridi.Bu məktəbdə ipəkçilik dərslərini Bessaraba tədris edirdi **[10, s.286]**.

Çaykənd və Qaraçinar məktəblərində də ipəkçilik dərsləri tədris olunurdu.Qaraçinar məktəbində 15 şagird ipəkçilik biliklərinə yiyələnirdi **[10, s.229]**.Qaraçinar məktəbində ipəkçilik dərsi Mustafayev tərəfindən tədris olunurdu **[10, s.288]**.

Qubadlı kənd məktəbində də ipəkçilik dərsi tədris olunurdu.1888-ci ildə Qubadlı məktəbində ipəkçilik dərslərinin keçirilməsi haqqında məlumat verən Nərimanbəyov yazırdı: “Məktəbdə bütün işlər ibtidai qaydada keçirilməsinə baxmayara, böyük irəliləyişə nail olunmuşdu.Mən Bezobrazovun “Kəndli təsərrüfatlarında ipək qurdunun yetişdirilməsində məsləhətlər” adlı kitabını şagirdlərə və kəndlilərə paylamışam. Mən qəza rəisi, cənab Qarayevdən ipək qurdunun İtaliya növünü istəyəndə, o mənim xaişimi yerə salmadı "**[10, s.233]**.

1859 və 1869-cu illərdə Şamaxıda baş verən zəlzələlər dörd sinifli Şamaxı qəza məktəbinin bağlanması qorxusunu yaratmışdı.1874-cü ildə Şamaxı məktəbi birsinifli məktəbə çevrilmişdi.Lakin qısa müddət ərzində Şamaxı məktəbi yerli əhalinin səyləri nəticəsində əhəmiyyətli dərəcədə tərəqqi etmişdi.Qafqaz Təhsil Dairəsinin hamisinin 1877-ci il fevralın birində canişinliyin baş idarə rəisinə məruzəsində göstərildiyi kimi, “1874-cü ildə Şamaxı qəza məktəbini birsinifli şəhər məktəbinə çevirərkən mən şagirdlərin son dərəcə azlığını nəzərə almışdım.Birsinifli şəhər məktəbinin üçillik təcrübəsi qəti inam yaradır ki, yerli sakinlərin qəza məktəblərindən soymasının əsas səbəbi qəza məktəb kursunun şəhər sakinlərinin tələblərinə cavab verməməsi idi.Hal-hazırda məktəbdə 100-ə yaxın şagird oxuyur və məktəb birsinifli olduğundan təhsil almaq arzusunda olanların çoxunu məktəbə qəbul etmək mümkün deyildir.Bunu nəzərə alan şəhər ictimaiyyəti hələ 1875-ci ildə məktəbə II və III sinifləri əlavə etmək məsələsini qaldırmış, hal-hazırda isə digər iki sinif üçün əlavə bina tikməyi də öhdəsinə götürmüşdü” **[18, s.31]**.Şamaxıda yerli əhali tərəfindən şəhər məktəbinə kömək məqsədi ilə yaradılmış “Şagirdlərə yardım cəmiyyəti”nin və məktəbdə dərs deyən müəllimlərin böyük səyləri məktəbin çiçəklənməsinə və Bakı quberniyasında məşhur məktəblərdən birinə çevrilməsinə gətirib çıxarmışdı.Şamaxı şəhər məktəbinin nəzdində 1888-ci ildə təşkil edilmiş ipəkçilik şöbəsi bir il sonra – 1889-cu ildə Tiflisdə keçirilən kənd təsərrüfatı və sənaye sərgisinə dəvət olunmuşdu.1893-cü ildə Şamaxı şəhər məktəbində olmuş Bakı qubernatoru məktəbin rəy dəftərində yazırdı: “1893-cü il oktyabrın 27-də Şamaxı şəhər məktəbi ilə tanış oldum.Məktəbin hər yerində səliqə-sahman hökm

sürürdü.Burada yaradılmış təbiət və tarix kolleksiyaları tərifə layiqdir.Direktorun dediyinə görə kolleksiyalar onun rəhbərliyi ilə şagirdlər tərəfindən tərtib edilmişdir.Müfəttişin şagirdləri əl əməyinə alışdırmaq, ölkə üçün vacib olan ipəkçilik və ipək emalı ilə tanış etmək cəhdi tamamilə təqdirə layiqdir" **[19, s. 178]**.

Şamaxı qəzasının Kürdəmir sahə məktəbində də ipəkçilik dərsi tədris olunurdu.Bu məktəbdə ipəkçilik dərsi Ə.Muradxanov tərəfindən tədris olunurdu **[10, s.141]**.

1887-ci ildə Naxçıvan şəhər məktəbi nəzdində kənd təsərrüfatı və sənət şöbələri yaradılmışdı.Məktəbin 4 sənəd və 3 kənd təsərrüfatı şöbəsi fəaliyyət göstərirdi.Burada dülgərlik, xarratlıq, dəmirçilik və çilingərlik sənətləri, habelə ipəkçilik, bağçılıq və bostançılıq kimi kənd təsərrüfatı bilikləri öyrədilirdi.Məktəbin sənət şöbəsində dülgərlik, xarratlıq, dəmirçilik və çilingərlik sənətləri öyrədilirdi.Naxçıvan qəzasının Cəhri, Şahtaxtı, Baş Noraşen və İmanşalı kənd məktəblərində də kənd təsərrüfatı və sənət şöbələri fəaliyyət göstərirdi **[17, s.120]**.

XIX əsrin sonlarında Naxçıvan şəhər məktəbi İrəvan quberniyasının 5 şəhər məktəbləri içərisində sənət şöbəsi olan yeganə məktəb idi.Məktəbin emalatxanası, şagirdlərin əl işləri, kitabxana və fizika kabinəsi ilə tanış olan rəsmi dövlət nümayəndələrinin məktəbin rəy dəftərinə yazmış olduqları xoş təəssüratlar şagirdlərin sənət öyrənməyə həvəsinin yüksək olduğunu göstərir.Şimali Azərbaycanın digər məktəbləri kimi Naxçıvan şəhər məktəbi şagirdlərinin də əl işləri Rusiyanın iri şəhərlərində təşkil edilən sənaye və kənd təsərrüfatı sərgilərində nümayiş **[11, s. 324]**.Məktəbdə ipəkçilik dərsini Melkumov tədris edirdi.O, xalq məktəbləri müfəttişi Pasxalovun təklifi ilə Naxçıvan qəzasının ayrı-ayrı kəndlərində ipəkçilik üzrə məşğələlər təşkil edirdi **[10, s.300-301]**.Məktəbin ipəkçilik şöbəsində adətən 30-40 şagird ipəkçiliyin incəliklərinə yiyələnirdilər.İpəkçilik şöbəsinin şagirdləri bəslədikləri barama qurdlarından sağlam ipək qurdu toxumu almaq işində xeyli müvəffəqiyyət qazanmışdı.Belə ki, məktəbin ipəkçilik şöbəsinin şagirdləri 1898-ci ildə bəslədikləri barama qurdlarından 240 misqal sağlam ipək qurdu toxumu əldə etmişdilər **[11, s.239]**.Məktəbdə ipəkçilik dərsini Melkonov tərəfindən tədris olunurdu **[10, s.162]**.

Mötəbər qaynaqlardan birinin məlumatına görə, Zaqatala dairəsinin Qax kənd məktəbinin kənd təsərrüfatı və sənət şöbələrində təhsil alan şagirdlər öz işlərinə xeyli məsuliyyətlə yanaşır və öyrəndikləri bilikləri ilə ipəkçilikdə, bağçılıqda və bostançılıqda böyük nailiyyətlər əldə etməyə çalışırdılar.Kənd təsərrüfatına aid məşğələlər əhalinin məişət həyatına da öz təsirini göstərirdi.Dövrün nəşirlərindən birində yazılır: "Qax kəndində müəllimin şagirdlərlə birlikdə apardığı bostançılıq işləri nəticəsində kənd sakinkləri də tərəvəz yetişdirməyi öyrəndilər və indi Zaqatalaya arabalarda kələm və kartof daşıyırlar.Lakin məktəb təsis edilənədək burada belə bostan bitkiləri heç vaxt yetişdirilmirdi" **[20]**.

1881-ci ildə Lənkəran şəhər ikisinifli məktəbinə rus dili və hesab müəllimi təyin olunan T.Bayraməlibəyov şagirdlərə kənd təsərrüfatına, xüsusilə ipəkçiliyə aid bilik vermək işində böyük əmək sərf etmişdir.O,öz tərcümeyi-halında yazırdı: "Mən bu məktəbə gələndə burada cəmi dörd şagird oxuyurdu.O zaman azərbaycanlılar öz uşaqlarını rus məktəblərinə qoymaq istəmirdilər.Belə hesab edirdilər ki, rus məktəbində oxumaq günah və dini cinayətdir.Valideyinlərin və dindarların ciddi təsiri olduğunu görüb mən müsəlman qardaşlarıma kömək etməyi mənəvi borc bilib qapı-qapı gəzərək uşaqları məktəbə toplamaq məqsədi ilə təbliğata başladım.Beləliklə birinci ili 16, fəaliyyətimin üçüncü ili 36 azərbaycanlı tələbə toplaya bildim."**[21, s.115-116]**.T.Bayraməlibəyovun "Bakı quberniyasındakı müsəlman kəndlərində ipəkçiliyin vəziyyətinə dair" adlı məqaləsi elmi əhəmiyyətə malikdir **[22, s. 576-582]**.

Quba ibtidai məktəbində isə arıçılığa xüsusi fikir verilirdi.1893-cü ildə Peterburqda Rus Arıçılıq Cəmiyyətinin təşkil etdiyi sərgidə iştirak edən və yüksək keyfiyyətli arı məhsulu nümayiş etdirən Quba ibtidai məktəbi cəmiyyətin tərifnaməsi ilə təltif edilmişdi.1854-cü ilin noyabrın 10-da 45 şagirdin qəbulu ilə öz fəaliyyətinə başlamış Quba ibtidai məktəbi özəl ənənələrə malik idi.Məktəbin nəfinə hər il müəyyən edilmiş miqdarda pul verənlər məktəbin fəxri müdiri təyin olunurdu.Məsələn,1869-cu ildə məktəbə 500 rubl verən Quba sakini M.Ə.Mahmudov məktəbin fəxri müdiri seçilmişdi **[11, s. 179]**.

Həyata keçirilən belə tədbirlər yerlərdə əhaliyə kənd təsərrüfatı biliklərini çatdırmaqla ona yaxından köməklik göstərilməsində və yeni üsullrın öyrədilməsində öz bəhrəsini verirdi.1889-cu ilin payızında Tiflis Şəhərində kənd təsərrüfatı və sənaye sərgisi keçirilirdi.Sərginin iştirakçısı olan baron Vrangel adına kənd məktəbi isə tərifnamə vərəqəsi ilə təltif olunmuçdu.Bu sərgidə həmçinin Zərdabdan Kərbəla növlü iri barama nümayiş etdirilmişdi **[23, s. 230]**.1896-cı ildə Nijni-Novqorodda keçirilən Ümumrusiya Sənaye və Bədii sərgisində iştirak edən Göyçay məktəbinin müddiri N.D.Kələşov və onun arvadı yüksək keyfiyyətli barama qurdu bəslədiklərinə görə bürünc medalı ilə təltif olunmuşdular.

Göyçay və Kürdəmirdə Qafqaz ipəkçilik stansiyası tərəfidən təşkil olunmuş məktəblərdə 1900-cu ildə keçirilən məşğələlərdə şagirdlər ipəkçilikdə əlverişli üsullarla əyani surətdə tanış olmaq imkanları qazandılar. Göyçay məktəbində həm də qadın şöbəsinin açılması onlara xammaldan ipəyin alınması və ipək materiyanın hazırlanması öyrədilirdi **[24]**.

Bəzi müəlliflərin fikrincə, Şimali Azərbaycanda "ibtidai məktəblərin lazımi səviyyədə müvəffəqiyyət qazanmamasının əsas səbəbi məktəbdə qazanılan biliklərin kənd həyatının fəaliyyətində istifadəsi üçün dəyərli əhəmiyyətinin olmaması" ilə bilavasitə bağlı olmuşdur **[25, s.282]**.

Digər sahə təşkilatları kimi Rusiya imperiyası Bağçılıq Cəmiyyətinin Qafqaz şöbəsi də müsabiqələr keçirir və bağçılıq mədəniyyəti üzrə qurultaylar təşkil edirdi. Cəmiyyətinin Qafqaz tərəfindən diyarın 11 məntəqəsində İpəkçilik üzrə sərgi-müsabiqələrin keçirilməsi nəzərdə tutulmuşdu. Sərgilərdə nümayiş etdirilən barama nümunələri yerli ekspertiza tərəfindən götürülərək Tiflisdəki ipəkçilik stansiyasına göndərmişdi. Burada yeni texniki ekspertiza aparıldıqdan sonra məhsullardan ən layiqlilər Qafqaz şöbəsi tərəfindən 300 müxtəlif hədiyyə, medal və s. ilə mükafatlandırılmışdı **[26]**.

Həmin ildə Qaraşəhərdə **[27]** 1886-cı ildə isə Balaxanı idarəsi (kontoru) yanında Nobel qardaşları firmasının fəhlə və qulluqçularının uşaqları üçün məktəbləri açılır **[28]**. Mövcud məktəblər təhsil almaq arzusunda olanların hamısına təhsil vermək iqtidarında deyildi. Hər il yüzlərlə təhsil almaq istəyən fəhlə balası məktəbdən kənarda qalırdı. Dövrün qəzetlərində məktəblərdə yerlərin çatışmazlığı üzündən uşaqların məktəblərə qəbul edilməsindən imtina olunması haqqında xeyli faktlar göstərilir. Qaraşəhərdə Nobel məktəbinin açılması zamanı 20 yerə 40 uşaq gəlmişdi, "Bakı xəbərləri" qəzetinin müxbirinin yazdığına görə, onlarla uşaq məktəbə daxil ola bilməmiş və onlar yaşıdlarının təhsil almaq xöşbəxtliyinə kənardan baxmaqla kifayətlənmişdilər **[27]**. 1888-ci ildə bu məktəb beşillik kursları olan ikisinifli məktəbə çevrilsə də, yuxarı qrupların təkmilləşməsi, onun əvvəlki tərkibə qaytarılmasına gətirib çıxarmışdı **[29, iş 764, v. 5]**.

1893-cü ildə Sabunçuda kənd məktəbi, Ağşəhərdə isə "S.M.Şibayev və Ko" firmasının və "Xəzər-Qara dəniz cəmiyyətinin" xüsusi məktəblərinin açılması sahibkarların xüsusi məktəblərin açılması işinə maraqlarını artırmış oldu.

1893-cü ilin məlumatına görə Bakı quberniyasındakı məktəblərin 4-də ipəkçilik, 2-də balıqçılıq, 2-də bostançılıq, 2-də arıçılıq, 4-də cildçilik, Yelizavetpol quberniyasındakı məktblərin 23-də ipəkçilik, 5-də bostançılıq, 3-də balıqçılıq, 1-də arıçılıq, 3-də dülgərlik və 1-də xarratlıq şöbələri fəaliyyət göstərirdi **[30, iş 4862, v.31 və 122]**.On il sonra Bakı və Yelizavetpol quberniyalarında ibtidai sənət məktəblərinin sayı 7-yə çatmışdı. Bunlar əsası 1876-cı ildə qoyulmuş Şuşa şəhər 3 sinifli məktəbi, əsası 1877-ci ildə qoyulmuş Şamaxı 4 sinifli və Nuxa 3 sinifli məktəbləri, əsası 1884-cü ildə qoyulmuş Yelizavetpol 6 sinifli məktəbi və əsası 1889-cu ildə qoyulmuş Bakı 3 sinifli Mixaylov məktəbi və Bakı 2 sinifli məktəb idi **[31, s.72]**.

XIX əsrin 80-ci illərindən başlayaraq meydana çıxan kənd məktəbləri xalqın maariflədirilməsi baxımından böyük rol oynamışdır. A.O.Çernyayevski "Qafqaz müsəlmanlarının xalq təhsilinin nəticələri" məqaləsində müxtəlif müqayisələr apararaq yazırdı ki, "Kazan müsəlmanları (tatarlar) ilə müqayisədə onların təhsil səviyyəsi daha irəlidir. Baxmayaraq ki, Kazan tatarları Rusiyanın tərkibinə 300 il əvvəl daxil olmuşlar". A.O.Çernyayevski bunu sevindirici əlamət kimi vurğulayır və önə çəkirdi **[32]**.

Xalq məktəblərinin yaradılması azərbaycanlıların orta və natamam orta məktəblərdə sayının kəskin şəkildə böyük təsir göstərirdi. 1894-cü ildə bütün Qafqazda yaşayan 2 milyon 886 min müsəlmandan orta məktəblərdə 438-i (onlardan 9-u qız idi), şəhər məktəblərində 578-i, xalq məktəblərində isə 2 336-sı təhsil alırdı. Bununla yanaşı, 23 900 nəfər (o cümlədən 2 199 qız) öz təhsillərini ənənəvi məktəb və mədrəsələrdə davam etdirirdilər. Bu dövrdə bütövlükdə 27 252 məktəbyaşlı uşaq bu və ya digər məktəbdə təhsil alırdı. Beləliklə, orta hesabla əhalinin 106 nəfərinə bir təhsilli şəxs düşürdü. Əgər bunların sırasına əsrin sonlarına doğru nəzərə çarpacaq dərəcədə artan xalq məktəblərinin şagirdlərinin sayını da əlavə etsək, onda xalq təhsilinin nəzərəçarpacaq inkişafı aydın görünür. Digər tərəfdən, əhalinin rus dilinə və dünyəvi təhsilə böyük marağı getdikcə artır. Bu mənada yaradılan xalq məktəbləri belə təhsilin həm kəmiyyət baxımından, həm də keyfiyyətinə inkişafına xidmət edirdi.

XIX əsrin sonlarına doğru meydana çıxan xalq məktəbləri yeganə ümumtəhsil məktəbləri idi ki, əhali arasında rus dilini və dünyəvi təhsili layiqincə yayırdı. Bu məktəblərin meydana çıxması həm də Azərbaycan dilinin və ədəbiyyatının inkişafında, mədəniyyətin və teatrın tərəqqisində böyük rol oynamışdı. Kənd məktəblərindəki xalq müəllimləri də bu istiqamətdə misilsiz xidmətlər göstərmişdilər. Sözün həqiqi mənasında onlar öz fəaliyyətləri ilə xalq maarifinin, məktəbinin və ümumiyyətlə, bütövlükdə mədəniyyətinin, kənd təsərrüfatı biliklərin yayılmasında və inkişafında böyük rol oynamışdır.

## İSTINAD EDILMIŞ ƏDƏBIYYAT VƏ MƏNBƏLƏRIN SIYAHISI:

**1.** Труды КОСХ, 1887, №3, с. 274, 282.
**2.** Труды КШС за 1891 г. Т. 4, Тифлис, 1892.
**3.** Труды КШС за 1887 и 1888 гг. Т.1, Тифлис, 1890.
**4.** Кавказская шелковедственная станция и ее устройства и деятельность с 1889 по 1905 года. Тифлис, 1906
**5.** Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX века. Bakı,1958, 846 s.
**6.** İsmayılov M.Ə. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı. Bakı, 1960, 243 s.
**7.** Труды КШС за 1892 г., т.6, вып. 2, Тифлис, 1893
**8.** Сборник статистических данных о землевладении и способах хозяйства в пяти губерниях Закавказского края. с. 86.Tiflis, 1899,922 s.
**9.** Əhmədov H., Əfəndiyev S. 150 yaşlı yubilyar məktəb və Şəkidə xalq maarifi.Bakı, "Maarif", 1983, 95 s.
**10.** Сборник материалов для описания местностей и племен Кавказа. Тифлис, Типография Канцелярий Главноначальствующего гражданскую частью на Кавказе, 1891. Отдел 2, 320 s.
**11.** Əhmədov H.X.Seçilmiş pedaqoji əsərləri. Bakı, "Elm", 2001, 356 s.
**12.** Əhmədov H., Həmidov S. 100 yaşlı Qarğabazar məktəbi. Bakı, "Maarif", 1983,76 s.
**13.** Циркуляр по управлению КУО, 1876,№ 9.
**14.** Əhmədov H. XIX əsr Azərbaycanda məktəb təhsilinin inkişaf tarixi.Doktorluq dissertasiyası. Bakı.1972.
**15.** Ağayev Ə.150 yaşlı Şuşa məktəbi.Bakı, "Maarif", 1983,64 s.
**16.** Циркуляр по управлению КУО, 1884, № 3.
**17.** Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. Bakı, "Maarif", 1985,300 s.
**18.** Циркуляр по управлении КУО, 1877, № 2.
**19.** Циркуляр по управлению КУО, 1884, № 22.
**20.** "Qafqaz" qəzeti, 1876, № 122.
**21.** Seyidov F.Ə.Qori seminariyası və onun məzunları, Bakı,1988, 291 s.
**22.** Циркуляр по управлению КУО, 1891, № 10.
**23.** Труды КШС за 1889, т. II, Тифлис, 1891.
**24.** Бакинские губернские ведомости, 10 март, 1901, №10

25. Антология педагогической мысли Азербайджанской ССР. Москва, Педагогика, 1989, 591 s.
26. «Вестник фин. пром. и торговли» 1899, № 18, 372 s.
27. Газета «Бакинские известие», 1884, № 22.
28. Газета «Бакинские известие», 1904, № 2
29. АРДТА, f. 309, siy. 1, iş 764, v. 5
30. Gürcüstan DTA, f. 422, siy. 1, iş 4862, v. 31 və 122.
31. Tağıyev Ə.S. Azərbaycan məktəb tarixi (XIX əsrin sonu-XXəsrin əvvəlləri). Bakı, 1993, 113 s.
32. Betül Aslan I Dünya savaşı esnasında "Azerbaycan türkleri"nin "Anadolu türkleri"ne "Kardaş Kömegi(Yardımı)" ve Bakü Mülüman Cemiyyet-i-Hayriyesi.Atatürk Kültür Mərkəzi Başkanlığı Yayınları, Ankara, 2000, № 7.

**ГЮЛАРА АЛВАН КЫЗЫ АЛИЕВА**
***Старший преподаватель Гянджинского Государственного Университета***
***gularaalvan@gmail.com***

Статья посвящена сельско-хозяйственным отделам, организованным при общеобразовательных школах и начавшим функционировать в 80-х годах XIX века. Привлекает внимание сыгравшее в этом вопросе огромную роль завершение строительства железной дороги Тбилиси-Баку и расширение деятельности Каспийского мореходства. В статье обстоятельно описывается со ссылкой на историко-статистические факты растущая в этот период потребность развивающейся капиталистической промышленности в специализированных рабочих, а также в образованных специалистах, способных оказывать технические услуги в отдельных областях промышленности, умеющих эффективно строить сельское хозяйство, управлять новыми транспортными средствами, объясняется факт обращения внимания царского правительства в Северном Азербайджане на увеличение количества общеобразовательных и специализированных школ, причины вынужденного повышения их образования, а также ход и результаты этого процесса.

**GULARA ALVAN KYZY ALIYEVA**
***Senior Lecturer at Ganja State University***
***gularaalvan@gmail.com***

The article is devoted to the agricultural departments launched under the auspices of the secondary schools as of 1880s. The special attention in this regard is drawn to the completion of construction of Baku-Tiflis railway and expansion of the functioning of Caspian navigation that had played enormous role in this issue. The article extensively elaborates on how the growing need of the developing capitalist industry in specialized workers, educated specialists in a capacity to provide technical services in various areas of industry, capable of using the modern means of transportation led to increased attention of the tsarist government in the Northern Azerbaijan to expanding the number of the schools of mainstream and special education as well as improving the level of education there, in addition to elaborating on the entire process and its results with reference to the historic-statistic facts.

***Rəyçilər: t.e.n. E.Aslanova, t.e.d. prof, H.Sadıqov, t.e.d. A.Məmmədov***
***GDU-nun Azərbaycan tarixi kafedrasının 16 dekabr 2011-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 05)***